# MƏHKƏMƏ-HÜQUQ ŞURASININ BÜLLETENİ

MART 2026

# MÜNDƏRİCAT


3 Yeni təyin olunmuş hakimlər Ali Məhkəmədə and içiblər

5 Şərqi Afrika Ədalət Məhkəməsinin nümayəndə heyəti Ali Məhkəmədə olub

6 "Ədalət mühakiməsi hüququ" adlı dərs vəsaitinin təqdimat mərasimi keçirilib

8 Milli Məclisdə vəzifəyə yeni təyin olunmuş hakimlərlə görüş keçirilib

10 Hakimlərin Seçki Komitəsinin məlumatı

12 Bir qrup hakim təlimə cəlb edilib

13 Azərbaycan məhkəmə-hüquq sisteminin nümayəndələrindən ibarət heyət Monteneqronun Budva şəhərində keçirilən regional seminarda iştirak edib

14 Məhkəmə-Hüquq Şurasının üzvü, Bakı Apellyasiya Məhkəməsinin sədri CEPEJ-in pilot məhkəmələr şəbəkəsinin 19-cu plenar iclasında iştirak etmişdir

15 Qərarlar

22 Hüquqi aktlar

30 Dünyada Hüquq

## Yeni təyin olunmuş hakimlər Ali Məhkəmədə and içiblər



2026-ci il martın 4-də Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.

İclasda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2026-cı il 3 mart tarixli Sərəncamı ilə birinci instansiya məhkəmələrinə təyinat alan 34 hakimin andiçmə mərasimi olub.

Ali Məhkəmənin sədri İnam Kərimov yeni təyin olunmuş hakimləri təbrik edərək, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Bildirilib ki, son illər aparılmış islahatlar nəticəsində məhkəmələrə çıxış imkanları genişləndirilib, idarəetmə mexanizmləri təkmilləşdirilib. Eyni zamanda hakimlərin seçimi prosesi şəffaflaşdırılmış və sadələşdirilib.

Diqqətə çatdırılıb ki, hakim yalnız hüquqi mübahisəni həll etmir, həm də insan taleyini müəyyən edir. Bu baxımdan hər bir işə həssaslıqla, diqqətlə və məsuliyyətlə yanaşmaq, ədalətin vaxtında və qərəzsiz təmin olunmasına xidmət etmək hakimlərin başlıca vəzifəsi olmalıdır. Sədr yeni hakimlərə şərəfli hakim adını hər zaman uca tutmağı, ədalətli, vicdanlı və məsuliyyətli olmağı tövsiyə edib.





Sonra hakimlər növbə ilə andiçmə üçün kürsüyə dəvət olunub. Onlar "Məhkəmələr və hakimlər haqqında" Qanunun tələbinə əsasən ədalət mühakiməsini Azərbaycan Respublikasının Konstitusiyasına və Qanunlarına tam uyğun olaraq, qərəzsiz, ədalətlə həyata keçirəcəyinə, hakimin müstəqilliyini və ləyaqətini qoruyub saxlayacağına, yüksək hakim adına hörmət ruhunda davranacaqlarına and içiblər.

Hakim vəzifələrinə yeni təyin olunmuş şəxslərə hakimin xüsusi geyim forması təqdim olunub.

Daha sonra yeni təyin olunmuş hakimlər Aybəniz Rəhimova və Əli Camalov çıxış edərək, onlara göstərilən yüksək etimadı doğruldacaqlarına və ədalət mühakiməsinin prinsiplərinə dönmədən əməl edəcəklərinə söz veriblər.

# Şərqi Afrika Ədalət Məhkəməsinin nümayəndə heyəti Ali Məhkəmədə olub



2026-cı il martın 16-da XIII Qlobal Bakı Forumu çərçivəsində ölkəmizdə səfərdə olan Şərqi Afrika Ədalət Məhkəməsinin prezidenti Nestor Kayoberanin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Azərbaycan Respublikasının Ali Məhkəməsində görüş keçirilib.

Qonaqları salamlayan Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərov Azərbaycan Respublikası ilə Şərqi Afrika regionu arasında hüquqi əməkdaşlığın əhəmiyyətini vurğulayıb. Görüş zamanı ölkəmizdə məhkəmə-hüquq sisteminin modernləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar, məhkəmə fəaliyyətində innovativ texnologiyaların tətbiqi və hakimlərin seçilməsi prosesində beynəlxalq standartların tətbiqi barədə ətraflı məlumat verilib.

Həmçinin məhkəmə sahəsində qarşılıqlı əməkdaşlığın genişləndirilməsi, təcrübə və informasiya mübadiləsinin təşviqinin əhəmiyyəti qeyd olunub.

Səmimi qəbula görə təşəkkürünü bildirən nümayəndə heyətinin rəhbəri Nestor Kayobera Azərbaycan məhkəmə sistemində aparılan islahatları yüksək qiymətləndirdiyini bildirib. Məhkəmələr arasında təcrübə mübadiləsinin və institusional əməkdaşlığın faydalı olacağı vurğulanıb.

Görüş zamanı tərəfləri maraqlandıran bir sıra məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# "Ədalət mühakiməsi hüququ" adlı dərs vəsaitinin təqdimat mərasimi keçirilib



2026-cı il martın 6-da Bakı Apellyasiya Məhkəməsində "Ədalət mühakiməsi hüququ" adlı dərs vəsaitinin təqdimat mərasimi təşkil olunub. Vəsait Azərbaycanda ədalət mühakiməsinin müxtəlif nəzəri və praktik aspektlərinin araşdırılmasına həsr edilib.

Kitabda ədalət mühakiməsinin mahiyyəti, son dövrlərdə həyata keçirilən məhkəmə-hüquq islahatları, bu sahədə informasiya texnologiyaları, rəqəmsallaşma və süni intellekt sistemlərinin tətbiqi perspektivləri kimi mövzular əhatə olunur. Bundan başqa, ədalətli məhkəmə araşdırması hüququnun ümumi və xüsusi institusional və prosessual təminatları, Azərbaycan Respublikasının məhkəmə sistemi, hakimlərin və məhkəmə prosesinin digər iştirakçılarının hüquqi statusu, eləcə də Məhkəmə-Hüquq Şurasının statusu və fəaliyyət istiqamətləri izah edilir. Kitabdan yalnız tələbələr deyil, həm də hakimlər, vəkillər, hüquq-mühafizə orqanlarının əməkdaşları, tədqiqatçılar və bu sahə ilə maraqlanan digər şəxslər faydalana bilərlər.

Təqdimat mərasimində çıxış edən Məhkəmə-Hüquq Şurasının Aparat rəhbəri Kərəm Mansurov "Ədalət mühakiməsi hüququ" vəsaitinin həm elmi-akademik, həm də praktiki əhəmiyyət daşıdığını diqqətə çatdırıb: "Təqdim olunan dərs vəsaitinin üstün cəhətlərindən biri də odur ki, burada ədalət mühakiməsinin nəzəri əsasları ilə yanaşı, müasir məhkəmə-hüquq islahatları, rəqəmsallaşma və yeni texnologiyaların məhkəmə sistemində tətbiqi kimi aktual məsələlər də geniş şəkildə təhlil olunmuşdur. Bu isə kitabın həm akademik, həm də praktik baxımdan əhəmiyyətini artırır".

Dərs vəsaitinin həmmüəllifi, Bakı Dövlət Universitetinin Cinayət prosesi kafedrasının müdiri

Firuzə Abbasova bildirib ki, kitab yeddi fəsildən ibarətdir. O, çıxışında hakimiyyət qollarının bir-biri ilə qarşılıqlı əlaqə şəraitində fəaliyyət göstərdiyini və bütün hallarda qanunun aliliyinə əməl edilməsinin vacibliyini qeyd edib.

Digər müəllif Milli Aviasiya Akademiyasının İqtisadiyyat və hüquq fakültəsinin dekanı, hüquq elmləri doktoru, professor Ayxan Rüstəmzadə çıxışında elm və praktik fəaliyyət sahələri arasında əməkdaşlığın əhəmiyyətini vurğulayıb. O qeyd edib ki, "Ədalət mühakiməsi hüququ" adlı dərs vəsaitinin nəşri də məhz bu əməkdaşlığın nəticəsidir. Bildirilib ki, kitab Milli Aviasiya Akademiyası ilə Məhkəmə-Hüquq Şurası arasında imzalanmış memorandum çərçivəsində nəşr olunub. O diqqətə çatdırıb ki, əməkdaşlıq çərçivəsində elm adamları ilə hakimlər arasında silsilə görüşlərin keçirilməsi də qarşıya məqsəd kimi qoyulub. Bu cür görüşlər nəzəri biliklərlə məhkəmə təcrübəsi arasında əlaqələrin daha da möhkəmlənməsinə xidmət edir.

Çıxışında Məhkəmə-Hüquq Şurasının bu istiqamətdə göstərdiyi dəstəyi xüsusi vurğulayan müəllif bildirib ki, qurum daim elmi təşəbbüslərə kömək edir və hakimlərin tədris prosesinə cəlb olunmasına şərait yaradır.

Kitabın müəlliflərindən olan hüquq elmləri doktoru Fərdin Xəlilov isə vəsaitdə müzakirəyə açıq bəzi məsələlərin də yer aldığını bildirib. Onun sözlərinə görə, kitabda Məhkəmə-Hüquq Şurasının statusunun Azərbaycan Respublikasının Konstitusiyasında konstitusion səviyyədə təsbit olunması ilə bağlı təkliflər irəli sürülüb.

Daha sonra çıxış edən Yasamal Rayon Məhkəməsinin sədri Anar Tanrıverdiyev və Bakı Apellyasiya Məhkəməsinin hakimi Faiq Qəniyev keçirilən görüşü yüksək qiymətləndiriblər. Onlar qanunvericilikdə mövcud olan boşluqların aradan qaldırılması istiqamətində təkliflərin hazırlanmasının vacibliyini qeyd edərək, bu sahədə alimlər və hakimlər arasında əməkdaşlığın daha da gücləndirilməsinin zəruri olduğunu bildiriblər.

Tədbir kitabın məzmunu və əhəmiyyəti ilə bağlı müzakirələrlə davam etdirilib.



## Milli Məclisdə vəzifəyə yeni təyin olunmuş hakimlərlə görüş keçirilib



Martın 17-də vəzifəyə yeni təyin olunmuş hakimlərlə Milli Məclisdə görüş keçirilib.

Tədbir iştirakçılarını spiker Sahibə Qafarovanın adından salamlayan Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev hakimləri bu məsul vəzifəyə təyin olunmaları münasibətilə təbrik edib, onlara fəaliyyətlərində uğurlar arzulayıb.

O, Azərbaycanda Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə başlamış hüquqi dövlət quruculuğu prosesi, onun əsas artibutlarından biri olan Konstitusiyanın qəbulu, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla davam etdirilən məhkəmə-hüquq islahatları barədə danışıb.

Parlamentlə məhkəmə orqanları arasında sıx əməkdaşlığın qurulduğunu deyən Aparat rəhbəri, Milli Məclisin məhkəmə-hüquq sisteminin fəaliyyətinin daha da təkmilləşdirilməsi üçün qəbul etdiyi qanunları diqqətə çatdırıb.

Sonra çıxış edən Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının üzvü Nizami Səfərov ölkəmizdə məhkəmə sisteminin fəaliyyəti, bu sahənin təkmilləşdirilməsi üçün görülən işlər barədə danışıb, beynəlxalq hüququn bir sıra məsələləri haqqında fikirlərini bölüşüb.

Görüşdə Məhkəmə-Hüquq Şurası Aparatı rəhbərinin müavini Rəşad Həsənli qanunvericilik və məhkəmə hakimiyyəti arasında yaradılmış sıx əməkdaşlığa və bu görüşün təşkilinə görə parlament rəhbərliyinə təşəkkürünü bildirib. O, bu görüşün yeni təyin olunmuş hakimlərin gələcək fəaliyyətində öz rolunu oynayacağına inamını ifadə edib.

Sonra slaydlar vasitəsilə Milli Məclisin fəaliyyətinə dair təqdimat diqqətə çatdırılıb.

Tədbir çərçivəsində hakimlər parlamentin inzibati binasında Heydər Əliyevin abidəsini və "Zəfər Guşəsi"ni ziyarət ediblər, parlamentin plenar iclas zalı ilə tanış olublar və xatirə şəkilləri çəkdiriblər.

# Hakimlərin Seçki Komitəsinin məlumatı




Hakimlərin Seçki Komitəsi tərəfindən vakant hakim ştatlarının komplektləşdirilməsi məqsədilə hakimliyə namizədlərin seçim prosesi davam etdirilir.

Davamlı olaraq aparılan müsabiqə çərçivəsində növbəti test imtahanında müvəffəqiyyət qazanmış 151 namizədlə 30 noyabr 2025-ci il tarixdə Dövlət İmtahan Mərkəzinin elektron imtahanlar korpusunda elektron qaydada yazılı imtahan keçirilib, imtahan zamanı cinayət və mülki sahələr üzrə kazus xarakterli 2 sual 4 saat ərzində cavablandırılıb.

Hakimliyə namizədlərin cavab vərəqələri kodlaşdırılaraq anonim qaydada, ikiqat üsulla Hakimlərin Seçki Komitəsinin üzvləri və dəvət edilmiş mütəxəssislər tərəfindən ayrı-ayrılıqda yoxlanılıb. Qaydalara əsasən, namizədin həm cinayət, həm də mülki sahələr üzrə topladığı ballar cəmlənir və 2-yə bölünərək, yekun bal müəyyən edilir. Topladığı yekun bal 60 və ya daha çox olan namizəd yazılı imtahanın bu mərhələsindən keçmiş hesab edilir, bu şərtlə ki, onun hər inşa mövzusu üzrə ayrı-ayrılıqda topladığı ballar 40-dan az olmasın.

İmtahanın nəticəsinə görə 60 və daha çox bal toplamış 69 hakimliyə namizəd müsabiqənin növbəti mərhələsinə - müsahibəyə buraxılıb. Qaydalara əsasən yazılı imtahanın nəticələri namizədlərin yalnız şəxsi eyniləşdirmə kodu göstərilməklə dərc edilir.

Müsahibə mərhələsi 2026-cı ilin 3 aprel tarixindən başlayaraq mərhələli qaydada keçiriləcəkdir.

Eyni zamanda bildirilir ki, növbəti test imtahanı 28 iyun 2026-cı il tarixdə keçiriləcəkdir.

Hakimlərin Seçki Komitəsi yerlərin məhdudluğunu nəzərə alaraq, hakim olmaq arzusunda olan şəxsləri müsabiqədə daha fəal iştiraka dəvət edir.

**Müsahibə mərhələsinə buraxılmış hakimliyə namizədlərin kod üzrə**

**SİYAHISI**

| № | Kodu |
|---|---|
| 1. | 2515059 |
| 2. | 2515061 |
| 3. | 2515068 |
| 4. | 2515074 |
| 5. | 2515078 |
| 6. | 2515083 |
| 7. | 2515095 |
| 8. | 2515097 |
| 9. | 2515098 |
| 10. | 2515102 |
| 11. | 2515110 |
| 12. | 2515112 |
| 13. | 2515128 |
| 14. | 2515129 |
| 15. | 2515132 |
| 16. | 2515135 |
| 17. | 2515137 |
| 18. | 2515145 |
| 19. | 2515149 |
| 20. | 2515151 |
| 21. | 2515152 |
| 22. | 2515160 |
| 23. | 2515162 |
| 24. | 2515167 |
| 25. | 2515168 |
| 26. | 2515171 |
| 27. | 2515175 |
| 28. | 2515178 |
| 29. | 2515181 |
| 30. | 2515182 |
| 31. | 2515187 |
| 32. | 2515190 |
| 33. | 2515191 |
| 34. | 2515205 |
| 35. | 2515220 |
| 36. | 2515221 |
| 37. | 2515223 |
| 38. | 2515232 |
| 39. | 2515233 |
| 40. | 2515239 |
| 41. | 2515240 |
| 42. | 2515241 |
| 43. | 2515246 |
| 44. | 2515253 |
| 45. | 2515265 |
| 46. | 2515268 |
| 47. | 2515269 |
| 48. | 2515270 |
| 49. | 2515272 |
| 50. | 2515286 |
| 51. | 2515290 |
| 52. | 2515294 |
| 53. | 2515295 |
| 54. | 2515304 |
| 55. | 2515307 |
| 56. | 2515308 |
| 57. | 2515309 |
| 58. | 2515311 |
| 59. | 2515314 |
| 60. | 2515317 |
| 61. | 2515321 |
| 62. | 2515323 |
| 63. | 2515325 |
| 64. | 2515326 |
| 65. | 2515332 |
| 66. | 2515333 |
| 67. | 2515347 |
| 68. | 2515353 |
| 69. | 2515366 |

## Bir qrup hakim təlimə cəlb edilib



Hakimlərin davamlı tədrisinin təkmilləşdirilməsi məqsədilə təlimçi hakimlərin müvafiq təlimlərə cəlb edilməsi üçün Məhkəmə-Hüquq Şurası tərəfindən zəruri tədbirlər həyata keçirilməkdədir.

Bu məqsədlə Ali Məhkəmənin dəstəyi və Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə cari ilin 10-14 mart tarixlərində Lənkəran rayonunda təlimçi hakimlər mülki hüquq və mülki proses mövzusunda uzunmüddətli təlimə cəlb ediliblər.

Almaniyanın Martin Lüter adına Halle-Vittenberq Universitetinin professoru Azər Əliyev və həmin Universitetin professoru Konstantin Branovitskiyin iştirakı ilə keçirilən təlimdə mövzular üzrə fikir mübadiləsi, müxtəlif kazuslar ətrafında müzakirələr aparılıb.

# Azərbaycan məhkəmə-hüquq sisteminin nümayəndələrindən ibarət heyət Monteneqronun Budva şəhərində keçirilən regional seminarda iştirak edib



Məhkəmə-hüquq sahəsində mütərəqqi beynəlxalq təcrübələrin öyrənilməsi istiqamətində fəal əməkdaşlıq tədbirləri davam etdirilməkdədir. Bu xüsusda, cari ilin 25-26 mart tarixlərində Monteneqronun Budva şəhərində məhkəmələrin fəaliyyətində səmərəliliyin artırılmasını hədəfləyən və həmin məqsədlə həllər təklif edən Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) “Hüquqi yardım: normativ hüquqi bazadan müqayisəli təhlilə və məlumatlardan istifadə qaydaları” mövzusunda regional seminarı keçirilmişdir.

Tədbirdə CEPEJ-in Azərbaycan Respublikası üzrə milli koordinatoru olaraq Məhkəmə-Hüquq Şurası Aparatının şöbə müdiri Fərid Əmirov və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin üzvü Elçin Usub iştirak etmişdir.

Seminarın məqsədi CEPEJ-in yenilənmiş Qiymətləndirmə və İdarəetmə Panelləri sorğusunun yeni göstəricilərinin şərh edilməsində, ilkin mərhələdə metodoloji çağırışların müəyyən edilməsində, hüquqi yardım məlumatlarının analitik istifadəsinin artırılmasında müvafiq milli qurumların nümayəndələrinə yardım etməkdir.

Seminar zamanı iştirakçılar hüquqi yardımın əsas anlayışları, konsepsiyaları, eləcə də hüquqi məsləhət, sənədlərin hazırlanması, məhkəmələrdə hüquqi təmsilçilik, onlayn formada və süni intellekt əsaslı hüquqi dəstək kimi hüquqi yardımın müxtəlif formaları üzrə ortaq fikirlər formalaşdırmış, mövzu ətrafında metodoloji və statistik çağırışlara müraciət etmişlər. Bununla yanaşı, hüquqi yardımın göstərilməsinə dair institusional model və proseslər barədə tədbir iştirakçılarına məlumat verilmiş, eləcə də seminar çərçivəsində baş tutan sessiyaların mövzularına uyğun olaraq hüquqi yardımın müxtəlif göstəriciləri üzrə statistik məlumatların aparılmasına dair iştirakçılar tərəfindən məlumat verilmişdir.

Tədbir hüquqi yardımla bağlı dəqiq, etibarlı statistik məlumatların toplanması, paylaşılması və müqayisəli təhlili imkanlarının genişləndirilməsi, eləcə də bu sahədə mövcud çağırışlar ətrafında faydalı fikir və təcrübə mübadiləsinin aparılması baxımından mühüm əhəmiyyət kəsb edir.

# Məhkəmə-Hüquq Şurasının üzvü, Bakı Apellyasiya Məhkəməsinin sədri CEPEJ-in pilot məhkəmələr şəbəkəsinin 19-cu plenar iclasında iştirak etmişdir




Cari ilin 31 mart tarixində Niderland Krallığının Maastrixt şəhərində Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) pilot məhkəmələr şəbəkəsinin 19-cu plenar iclası keçirilmişdir. Tədbirdə Məhkəmə-Hüquq Şurasının üzvü, Avropa Şurasının pilot məhkəmələr şəbəkəsinə daxil olan Bakı Apellyasiya Məhkəməsinin sədri Mübariz Əkbərov iştirak etmişdir.

Tədbirin plenar sessiyasında CEPEJ-in fəaliyyətində pilot məhkəmələrin rolunun, eləcə də təşkilatın 2025-ci ildəki nailiyyətlərinin və 2026-cı il üçün prioritetlərinin müzakirəsi baş tutmuş, "Ədalət Mühakiməsinin Kristal Tərəzisi" mükafatının təqdimatı edilmişdir. Sözügedən iclasda həmçinin son qəbul edilmiş CEPEJ alətləri barədə pilot məhkəmələr məlumatlandırılmış, tədbir iştirakçılarının təşkilatın cari fəaliyyətinə dair fikirləri dinlənilmişdir.

İclas çərçivəsində təşkil olunan seminarda Bakı Apellyasiya Məhkəməsinin sədri Mübariz Əkbərov Azərbaycanın müasir məhkəmə sisteminin məhkəmə-hüquq islahatları sayəsində dövrün tələblərinə müvafiq surətdə inkişaf etdiyini bildirərək, hakimlərin peşəkarlıq səviyyəsini müəyyən etməyə imkan verən keyfiyyət və kəmiyyət göstəriciləri ilə bağlı yerli qanunvericiliyə edilmiş son dəyişikliklər, Məhkəmə-Hüquq Şurasının yeni təsdiq etdiyi "Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi qaydaları və metodologiyası"nda əks olunan keyfiyyət meyarları, Azərbaycan məhkəmələrində "Elektron məhkəmə" informasiya sisteminin yeni versiyasının tətbiqi, üstünlükləri və yaxın müddətdə istifadəyə veriləcəyi, habelə süni intellekt və rəqəmsal texnologiyanın məhkəmə işlərində qərəzsizlik, şəffaflıq və məhkəməyə əlçatanlıq baxımından fayda və riskləri barədə məlumat vermişdir.

İclasda ümumilikdə məhkəmə proseslərinin avtomatlaşdırılması, məhkəmələrin fəaliyyətinin ətraf mühitə təsiri, müasir məhkəmə idarəetməsinin əsas aspektləri və təlim metodları, ədalət mühakiməsinin keyfiyyət göstəriciləri, məhkəmədə rəqəmsallaşma və süni intellekt mövzularına dair təcrübə mübadiləsi aparılmışdır. Tədbir pilot məhkəmələr arasında dialoq və əməkdaşlığın qurulmasına, məhkəmə sisteminin səmərəliliyinin artırılmasına dair ən yaxşı təcrübələrin öyrənilməsinə xüsusi töhfə vermişdir.

# Mülki işlər üzrə ★★★ statuslu qərar

**2[102]-3953/202 xülasə**

**Mübahisəli hüquqi məsələnin qısa məzmunu:**
Mübahisəli hüquqi məsələnin qısa məzmunu: Tərəflərin bağladıqları müqaviləyə əsasən iddiaçı 1/12 payla mülkiyyətində olan fərdi yaşayış evini sökülmək üçün cavabdehə təhvil verməyi, cavabdeh isə tikilinin yerləşdiyi ərazidə inşa ediləcək hündürmərtəbəli yaşayış binasında sahəsi 19,6 kv.m. təşkil edən təmirli mənzili iddiaçıya verməyi, habelə mənzili təhvil verənədək iddiaçının kirayədə yaşaması üçün kirayə xərcini ödəməyi öhdəsinə götürmüşdür.
İddiaçı müqavilə öhdəliklərinin cavabdeh tərəfindən pozulmasına istinad edərək, yeni tikilmiş binada tam təmirli və çıxarışlı mənzillə təmin olunması, ödənilməmiş kirayə pullarının, habelə ona dəymiş maddi və mənəvi zərərin cavabdehdən tutulmasını tələb etmişdir.
Birinci instansiya məhkəməsi iddianı qismən təmin etsə də, apellyasiya instansiyası məhkəməsi qətnaməni ləğv edərək, iddianı o əsasla rədd etmişdir ki, binada 19,6 kv.m-lik mənzil olmadığından öhdəliyin cavabdeh tərəfindən icrası mümkün deyil. Bu səbəbdən həmin öhdəliyə xitam verilib. Məhkəmə Mülki Məcəllənin 556.1-ci maddəsinə istinad etmişdir.

**Kassasiya instansiyası məhkəməsinin mövqeyi:**
Öhdəliyin yerinə yetirilməsinin mümkün olmaması icranın imkansızlığı (mümkünsüzlüyü) ilə bağlı bir məsələdir. İcra imkansızlığı, öhdəliyin yerinə yetirilməsinin daimi və qəti şəkildə mümkün olmamasıdır. Başqa sözlə, öhdəliyi icra etmək obyektiv səbəblərdən və hər kəs üçün imkan xaricində olur.
İcra mümkünsüzlüyü iki növdə olur: 1) başlanğıcdakı icra mümkünsüzlüyü; 2) sonrakı icra mümkünsüzlüyü. Bu növ imkansızlıqlar meydana gəlmə vaxtı və hüquqi nəticələri baxımından bir-birindən əhəmiyyətli şəkildə fərqlənirlər.
Başlanğıcdakı icra mümkünsüzlüyü əqdin bağlanmasından əvvəl meydana gələn səbəblərlə bağlıdır. Yəni öhdəliyin yerinə yetirilməsini mümkünsüz edən hallar əqd (müqavilə) bağlananadək mövcud olur. Bu halda öhdəlik ümumiyyətlə yaranmır. Çünki, başlanğıcdakı icra imkansızlığı, bağlandığı andan əqdin etibarsız (əhəmiyyətsiz) olmasına dəlalət edir.
Sonrakı icra mümkünsüzlüyü isə əqd etibarlı şəkildə bağlanandan sonra öhdəliyin icrası əsnasında ortaya çıxan imkansızlıqdır. Bu cür mümkünsüzlüyün özü də iki növdə olur: 1) sonrakı təqsirli icra mümkünsüzlüyü; 2) sonrakı təqsirsiz icra mümkünsüzlüyü.
Əgər öhdəliyin yerinə yetirilməsi müqavilə qurulduqdan sonra borclunun cavabdehlik daşıdığı hallara görə daimi və qəti şəkildə imkansız olmuşsa, burada sonrakı təqsirli icra mümkünsüzlüyündən söhbət gedir. O cümlədən, əgər borclu müqavilənin bağlandığı məqamda öhdəliyin icrasının sonradan mümkünsüz olacağını bilirsə və ya təxmin edirsə, yenə də təqsirli sayılır və kreditor qarşısında məsuliyyətdən azad olmur.
Öhdəliyin icrasının borcludan qaynaqlanan səbəblərə görə mümkün olmadığı belə hallarda onun öhdəliyinə nəinki xitam verilmir, əksinə o, bundan irəli gələn mənfi hüquqi nəticələr üçün kreditor qarşısında tam şəkildə məsul tutulur.
Müqavilə bağlandıqdan sonra öhdəliyin icrasını özünün təqsirli hərəkətləri ilə imkansız vəziyyətə gətirən borclunu mülki hüquqi məsuliyyətdən azad etmək olmaz. Başqa sözlə, borclunun müqavilə öhdəliyi xətm olmur, kreditorun da müqavilədən irəli gələn tələb hüquqları aradan qalxmır. Kreditorun borclunun ona təklif edə biləcəyi (müqavilədə nəzərdə tutulandan) ayrı icranı qəbul etmək hüququ (Mülki Məcəllə, maddə 435) ilə yanaşı, öhdəliyin icrası əvəzinə düşdüyü bütün zərərlərin ödənilməsini tələb etmək ixtiyarı var.
Bununla belə, borclunun iradəsi və fəaliyyət sferası xaricində meydana gələn, öhdəliyin icrasını mütləq və qaçılmaz şəkildə mümkünsüz edən qarşısıalınmaz (fövqəladə) hadisələr də baş verə bilər. Kreditor da özünün təqsirli hərəkəti ilə icranı imkansız edə bilər. Öhdəliyin icrası borclunun

cavabdeh olmadığı bu kimi hallardan irəli gəldiyi üçün ona təqsirsiz icra mümkünsüzlüyü deyilir. Bu halda öhdəliyin yerinə yetirilməsini imkansız edən səbəblərə görə borclunu məsul tutmaq olmur. Ona görə də, borclunun öhdəliyinə xitam verilir, o, kreditor qarşısında məsuliyyətdən azad edilir.
Odur ki, borclunun iradəsi xaricində, onun cavabdeh ola bilməyəcəyi hallarda öhdəliyə icra mümkün olmadığına görə xitam verilir. Bu şərt Mülki Məcəllənin 556.1-ci maddəsində "icra edilməmə tərəflərin heç birinin cavabdeh olmadığı haldan irəli gəldikdə" sözləri ilə açıqca ifadə edilmişdir. Həmin hallar elə səbəbləri özündə ehtiva edir ki, öhdəliyin pozuntusuna görə borclunu günahlandırmaq, ondan icranı tələb etmək əxlaqi və hüquqi baxımdan mümkün olmur. Ona görə də borclunun öhdəliyi aradan qalxır.
Qeyd edilənləri nəzərə alan kassasiya məhkəməsi, apellyasiya instansiyası məhkəməsinin qətnaməsini ləğv edərək, işi yeni apellyasiya baxışına qaytarmışdır.

Qeyd: Bu qərarın əsaslandırıcı hissəsində təbii (məntiqi), faktiki və hüquqi səbəblərdən icranın mümkünsüzlüyü, təqsirli icra mümkünsüzlüyü halında borclunun tələb edə biləcəyi zərərlərin həcmi, Mülki Məcəllənin 556-cı maddəsi ilə öhdəliyə xitam verilməsinin mümkün olmadığı hallar, təqsirsiz icra mümkünsüzlüyünün nəticələri, bu zaman borclunun vəzifələri və öhdəlikləri kimi məsələlərə geniş izahlar verilmişdir.

*∗Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.*

## Cinayət işləri üzrə ★★★ statuslu qərar

**1[102]-2010/2025 xülasə**

**Birinci instansiya məhkəməsinin mövqeyi:**
Birinci instansiya məhkəməsinin hökmünə əsasən, məhkum CM-in 314.2-ci maddəsi ilə təqsirli bilinərək 2 il 6 ay müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, barəsində CM-in 70-ci maddəsi tətbiq edilməklə təyin olunmuş cəzası şərti olaraq tətbiq edilərək 2 il sınaq müddəti müəyyən edilmişdir.
İş üzrə verilmiş mülki iddia qismən təmin edilərək, sökülmüş Bakı şəhəri, Nərimanov rayonu, **** ünvanında yerləşən mərtəbəsi 1-ci mərtəbə olan 53,2 kv.m sahəsi olan qeyri-yaşayış sahəsinə görə eyni ölçüdə 1-ci mərtəbədə tam təmirli qeyri-yaşayış sahəsi və Bakı şəhəri, Nərimanov rayonu, **** ünvanında yerləşən sahəsi 56,7 kv.m olan mərtəbəsi zirzəmi kimi qeyd olunmuş qeyri-yaşayış sahəsinə görə mərtəbəsi zirzəmi olan eyni ölçüdə tam təmirli qeyri-yaşayış sahəsinin mülki iddiaçıya təhvil verilməsi, 30.09.2020-ci tarixdən başlayaraq qeyri-yaşayış sahələrinin yerləşdiyi binanın istismara təhvil verildiyi tarixə kimi hər ay 1.200 manat məbləğində icarə haqqının (əldən çıxmış fayda) hesablanıb mülki iddiaçıya ödənilməsi qərara alınmışdır.
Mülki iddiaçının nümayəndəsi hökmün mülki iddiaya dair hissəsinə izah verilməsi üçün birinci instansiya məhkəməsinə ərizə ilə müraciət etmişdir.
Birinci instansiya məhkəməsinin qərarı ilə hökmün mülki iddiaya dair hissəsinə izah verilməsi barədə mülki iddiaçının nümayəndəsinin ərizəsi təmin edilməmişdir.

**Apellyasiya instansiyası məhkəməsinin mövqeyi:**
Apellyasiya instansiyası məhkəməsinin qərarı ilə birinci instansiya məhkəməsinin qərarı dəyişdirilmədən saxlanılmış, zərərçəkmiş şəxsin (mülki iddiaçı) nümayəndəsi tərəfindən verilmiş apellyasiya şikayəti təmin olunmamışdır.

**Azərbaycan Respublikası Ali Məhkəməsinin mövqeyi:**
Zərərçəkmiş şəxsin nümayəndəsi tərəfindən verilmiş kassasiya şikayəti təmin edilmiş, apellyasiya instansiyası məhkəməsinin qərarı ləğv edilmiş və cinayət işi yeni apellyasiya baxışına təyin edilmişdir.

**Azərbaycan Respublikası Ali Məhkəməsinin əsaslandırması:**
1. CPM-in 179-cu maddəsinə əsasən cinayət mühakimə icraatında mülki iddia bu Məcəllənin müddəaları ilə müəyyən edilmiş qaydalara əsasən verilir, sübut və həll olunur.
2. CPM-in 179.2-ci maddəsində qeyd edilmişdir ki, mülki prosessual qanunvericiliyin normaları cinayət mühakimə icraatının prinsiplərinə zidd olmadıqda və mülki iddia üzrə icraatda zəruri olan qaydalar bu Məcəllədə nəzərdə tutulmadıqda mülki prosessual qanunvericiliyin normalarının tətbiqinə yol verilir.
3. MPM-in 230.1-ci maddəsinə əsasən, işə baxmış hakim işdə iştirak edən şəxslərin ərizəsi əsasında ləğv edilməmiş qətnaməsini onun məzmununu dəyişdirmədən izah etməyə haqlıdır. Göründüyü kimi, qanunverici məhkəmə aktının izah edilməsi institutunu məhkəmə aktının məzmununa müdaxilə etmədən onun düzgün və vahid formada başa düşülməsini, habelə qanun tələblərinə uyğun şəkildə icrasını təmin edən hüquqi mexanizm kimi nəzərdə tutmuşdur.
4. CPM-də cinayət icraatı zamanı qəbul edilmiş məhkəmə aktlarının izah edilməsi ilə bağlı birbaşa norma nəzərdə tutulmamışdır. Lakin bu hal məhkəməni cinayət işi çərçivəsində baxılmış

mülki iddia üzrə qəbul edilmiş qərarın aydın və icra edilə bilən formada təmin edilməsindən azad etmir.

5. Kassasiya kollegiyası CPM-in 179.2-ci maddəsinin tələblərinə əsaslanaraq qeyd etmişdir ki, cinayət işi üzrə mülki iddia üzrə icraatın aparılması və onun həlli cinayət-prosessual qanunvericiliyin normaları ilə yanaşı, həm də mülki-prosessual qanunvericiliyin müvafiq normalarına uyğun həyata keçirilməlidir. Bu baxımdan, cinayət icraatı çərçivəsində qəbul edilmiş məhkəmə aktının mülki iddiaya aid hissəsində qeyri-müəyyənlik yarandıqda və ya həmin hissənin icrası zamanı çətinliklərin meydana çıxması ehtimalı olduqda, həmin qərarın izah edilməsi zərurəti ortaya çıxa bilər.

6. Belə olan halda, cinayət-prosessual qanunvericilikdə birbaşa norma mövcud olmasa da, məhkəmə aktının mülki iddiaya dair hissəsinin izah edilməsi MPM-in 230.1-ci maddəsində nəzərdə tutulmuş hüquqi mexanizm əsasında mümkün hesab edilməlidir.

7. Həmin norma işə baxmış məhkəməyə qəbul edilmiş və ləğv edilməmiş qətnamənin məzmununu dəyişdirmədən onun izahını vermək səlahiyyəti tanıyır. Bu yanaşma həm mülkiyyət hüququnun müdafiəsi, həm pozulmuş hüquqların real bərpası, həm də məhkəmə aktlarının icrasının effektivliyinin təmin edilməsi baxımından zəruridir.

8. Əks halda, mülki iddiaya dair qəbul edilmiş qərarın formal olaraq mövcud olması, lakin onun qeyri-müəyyən məzmunu səbəbindən icra olunmaması və ya natamam icrası zərərçəkmiş şəxsin hüquqlarının faktiki olaraq bərpa edilməməsi ilə nəticələnə bilər.

9. Bu səbəbdən kassasiya kollegiyası hesab etmişdir ki, birinci instansiya məhkəməsinin cinayət işi üzrə qəbul etdiyi hökmün mülki iddiaya dair hissəsinə izah verilməsi barədə ərizənin MPM-in 230.1-ci maddəsinə əsasən baxılması qanunvericiliyin tələblərinə zidd olmayıb, əksinə, məhkəmə müdafiəsinin səmərəliliyinə və hüquqi müəyyənlik prinsipinin təmin edilməsinə xidmət edir.

10. Ona görə də, kassasiya kollegiyası zərərçəkmiş şəxsin hazırkı cinayət işi üzrə birinci instansiya məhkəməsinin hökmünün onun tərəfindən verilmiş mülki iddianın təmin edilməsinə dair hissəsinə izah verilməsi barədə ərizə ilə müraciət etməsini qanuna uyğun hesab etmişdir.

11. Cinayət işinin materiallarından görünür ki, məhkumun törətdiyi cinayət əməlləri nəticəsində zərərçəkmiş şəxsə məxsus daşınmaz əmlak məhv edilmişdir. Həmçinin iş materiallarından görünür ki, zərərçəkmiş şəxs ona məxsus qeyri-yaşayış sahəsini icarəyə verməklə gəlir əldə etmişdir. Birinci instansiya məhkəməsinin hökmü ilə zərərçəkmişin mülki iddiası qismən təmin edilmiş, ona vurulmuş zərərin naturada ödənilməsi öhdəliyi "****" QSC-nin üzərinə qoyulmuşdur.

12. Kassasiya kollegiyası işin hallarını nəzərə alaraq hesab etmişdir ki, birinci instansiya məhkəməsinin hökmünün zərərçəkmiş şəxsə vurulmuş ziyanın naturada ödənilməsi ilə bağlı hissəsinə izah verilməsi barədə ərizənin verilməsi qanunvericiliyin tələblərinə tam uyğundur və bu ərizə formal xarakter daşımır.

13. Belə ki, hazırkı iş üzrə birinci instansiya məhkəməsi zərərçəkmiş şəxsə vurulmuş ziyanın naturada ödənilməsi barədə qərar qəbul etsə də, həmin qərarın icrası zamanı məhv edilmiş qeyri-yaşayış sahəsinin hansı keyfiyyət göstəricilərinə, funksional təyinatına və istifadə imkanlarına uyğun şəkildə bərpa edilməli olması məsələsi aydın şəkildə müəyyən edilməmişdir. Bu isə məhkəmə qərarının icrası mərhələsində ziddiyyətli yanaşmalara, habelə zərərçəkmiş şəxsin mülkiyyət hüququnun real bərpasının təmin olunmamasına səbəb ola bilər.

14. Hazırkı iş üzrə zərərçəkmiş şəxsə vurulmuş ziyanın naturada ödənilməsi barədə qərarın icrası zamanı qeyri-yaşayış sahəsinin funksional təyinatı, istifadə imkanları və iqtisadi dəyəri nəzərə alınmadan yalnız sahə ölçülərinə əsaslanılması, zərərçəkmiş şəxsin mülkiyyət hüququnun faktiki bərpasını təmin etmir.

15. Bu isə Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsi ilə qorunan mülkiyyət hüququnun effektiv müdafiəsi prinsipi ilə uzlaşmır. Belə olan halda, birinci instansiya məhkəməsinin hökmünün zərərçəkmiş şəxsə vurulmuş ziyanın naturada ödənilməsinə dair hissəsinə izah

verilməsi barədə ərizə, həm MPM-in 230.1-ci maddəsinin məqsədinə, həm də Avropa İnsan Hüquqları Məhkəməsinin formalaşdırdığı hüquqi yanaşmalara uyğun gəlir.

16. Məhkəmə tərəfindən "Ailə Park" QSC-nin üzərinə zərərçəkmiş şəxsə vurulmuş ziyanın naturada ödənilməsi barədə qəbul edilmiş qərar Mülki Məcəllənin 1115-ci maddəsinin tələblərinə uyğun icra edilməsi üçün izah edilməlidir.

17. Əks halda mülkiyyətin toxunulmazlığı, pozulmuş hüquqların bərpasının təmin edilməsi və mülki hüquqların məhkəmə müdafiəsi prinsipləri real hüquqi mexanizm kimi deyil, deklarativ xarakter daşıyacaq və nəticə etibarilə zərərçəkmiş şəxsin mülkiyyət hüququnun pozulmasına gətirib çıxaracaqdır.

19. Odur ki, kassasiya kollegiyası apellyasiya instansiyası məhkəməsinin qərarının zərərçəkmiş şəxsin nümayəndəsinin kassasiya şikayətinə münasibətdə ləğv edilməli və cinayət işi yeni apellyasiya baxışına təyin edilməli olması barədə nəticəyə gəlmişdir.

*∗Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.*

# İnzibati işlər üzrə ★★★ statuslu qərar

**2-1[102]-3097/2025 xülasə**

**Mübahisəli hüquqi məsələnin qısa məzmunu:**
əlillik dövründə pensiya yaşına çatmış şəxsə əlilliliyə görə əmək pensiyasının müddətsiz təyin edilməsi

**Kassasiya instansiyası məhkəməsinin mövqeyi:**
1. "Əmək pensiyaları haqqında" Qanunun 32.2-ci maddəsində imperativ şəkildə qeyd olunmuşdur ki, əlilliyə görə əmək pensiyası, bu Qanunun 7-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş pensiya yaşına çatmış şəxslərə ömürlük təyin edilir. Göründüyü kimi, "Əmək pensiyaları haqqında" Azərbaycan Qanunun 32.2-ci maddəsinin dispozisiya şərtlərində pensiya yaşına çatmış əlilliyi olan şəxsə əlilliyə görə əmək pensiyasının ömürlük təyin edilməsi üçün əlilliyin yenidən qiymətləndirilməsi şərti nəzərdə tutulmamışdır. Qanunvericilikdə nəzərdə tutulan şərt ondan ibarətdir ki, əlilliyə görə əmək pensiyasının ömürlük təyin edilməsi üçün şəxs "Əmək pensiyaları haqqında" Qanunla müəyyən edilən pensiya yaşına çatmalı və həmin an əlilliyi müəyyən edilmiş şəxs olmalıdır. Şəxsə daha əvvəl əlilliyə görə əmək pensiyasının əlillik dövrü üçün təyin edilmiş olmasına baxmayaraq, həmin dövrün daxilində şəxsin "Əmək pensiyaları haqqında" Qanunla müəyyən edilən pensiya yaşına çatdığı hallarda da onun əlilliyə görə əmək pensiyasının ömürlük təyin edilməsini tələb etmək haqqı yaranır. Bunun üçün pensiya yaşına çatdıqdan sonra əlavə olaraq şəxsin müraciəti tələb olunmur. Həmin məsələ inzibati orqanın xidməti vəzifəsinin icrası qaydasında həll olunmalıdır.
2. "Əmək pensiyaları haqqında" Qanunun 32.2-ci maddəsindəki "şəxsin müraciəti əsasında" sözləri həmin normanın birinci hissəsinə, yəni "əlilliyə görə əmək pensiyasının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi əlillik dövrü üçün təyin olunması" hissəsinə aiddir. Yəni, həmin normada əlillik müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edildiyi təqdirdə (yaşa görə pensiya hüququ olmadıqda) müraciətin imperativliyi nəzərdə tutulmuş, əlilliyə görə əmək pensiyasının "Əmək pensiyaları haqqında" Qanunun 7-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş pensiya yaşına çatmış şəxslərə ömürlük təyin olunması hissəsində şəxsin müraciətinin olması nəzərdə tutulmamışdır.
3. Əmək pensiyası yaşına çatmış əlilliyə görə pensiya alan şəxslərə əlilliyə görə əmək pensiyasının ömürlük təyin edilməsi zamanı bunun mütləq şəkildə müvafiq müraciətlə şərtləndirilməsi inzibati icraat haqqında qanunvericiliyin əsas prinsip və tələbləri ilə ziddiyyət yaratmış olardı. Belə ki, "İnzibati icraat haqqında" Qanuna əsasən, inzibati orqanlar qanunun tələblərinə riayət etməyə borcludurlar. İnzibati orqanlar yalnız qanunla nəzərdə tutulmuş hallarda və qaydada şəxsin hüquq və azadlıqlarına müdaxilə edə bilərlər. Fiziki və ya hüquqi şəxsə münasibətdə hər hansı hüquq normasını tətbiq etməli olan inzibati orqan, maraqlı şəxsin vəsatətinə əsasən və ya xidməti vəzifəsindən irəli gələn hallarda öz təşəbbüsü ilə həmin normanı tətbiq etməyə borcludur. İnzibati orqan ərizə, şikayət və ya vəsatətlərin verilməsində, ərizə, şikayət və ya vəsatətlərdə buraxılmış səhvlərin aşkar edilməsində və onların aradan qaldırılmasında maraqlı şəxsə yardım etməyə, inzibati icraatda iştirak edən şəxsin malik olduğu hüquq və vəzifələri ona izah etməyə borcludur. Obyektiv araşdırma prinsipini təsbit edən normaya əsasən, inzibati orqan maraqlı şəxslərin xeyrinə olan halların araşdırılmasından və nəzərə alınmasından imtina edə bilməz. İnzibati icraat zamanı işin bütün hallarının araşdırılması inzibati orqanın xidməti vəzifəsindən irəli gəlir. İnzibati orqan maraqlı şəxslərin izahatları ilə və təqdim etdiyi sübutlarla bağlı deyildir. Qanunda birbaşa nəzərdə tutulmadığı hallarda fiziki və

ya hüquqi şəxslər tərəfindən formal tələblərə əməl olunmaması və ya lazımi qaydada əməl olunmaması inzibati orqanlar tərəfindən müvafiq qərarın qəbul edilməsindən imtina üçün əsas ola bilməz.

4. Əlilliyə görə pensiya alan şəxs əmək pensiyası yaşına çatdıqda və həmin an onun əlillik statusu mövcud olduqda (əlilliyin müddətli və ya müddətsiz olmasından asılı olmayaraq) inzibati orqan qanunvericiliyin müddəalarını pensiya alan şəxsə izah etməli, pensiya yaşı çatdığı üçün əlilliyə görə pensiyanın ömürlük təyin edilməsi, şəxsin hansı pensiya növünü seçməsi, həm də hər iki pensiya növündən hansı üzrə təyin ediləcək pensiyanın məbləği barədə ətraflı məlumat verməli, bundan sonra şəxsin mövqeyi nəzərə alınaraq ona əlilliyə görə ömürlük, yaxud yaşa görə pensiya təyin edilməsi barədə qərar qəbul etməlidir. İnzibati icraat haqqında qanunvericiliyin tələblərinə əsasən cavabdeh inzibati orqan maraqlı şəxsə yardım etməyə, iddiaçının malik olduğu hüquq və vəzifələri ona izah etməyə borcludur.

*∗Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.*

# Qanunvericiliyə edilmiş dəyişikliklər

Hüquqi akta keçid

## 1. "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VIIKQD nömrəli Konstitusiya Qanunu

Dəyişikliyə əsasən Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına iki yeni maddə əlavə edilmişdir, bir maddə çıxarılmışdır. Həmçinin bir sıra maddələrdə və Preambula hissəsində dəyişikliklər edilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasının 134-cü maddəsinin III hissəsində qeyd olunan Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikasının ayılmaz tərkib hissəsi olmağı ilə bağlı müddəa Naxçıvan Muxtar Respublikası Konstitusiyasının Preambulasında öz əksini tapması dəyişikliklərdə qeyd olunmuşdur.

Konstitusiyaya əlavə edilən "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyi" adlı 3-1-ci maddəyə əsasən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi Naxçıvan Muxtar Respublikasının ərazisində Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi vəzifələri yerinə yetirən icra orqanıdır və ona rəhbərliyi Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Azərbaycan Respublikasının Prezidentinə tabe olan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi həyata keçirir.

Digər maddə "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin buraxılması" adlı 28-1-ci maddədir. Bu maddədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 31 deputatın tələbi ilə və ya Konstitusiyanın müvafiq maddələrində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra edə bilmədikdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən buraxılması qeyd olunur.

Konstitusiya Qanununda olunan dəyişikliklərdən biri də "Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi" adlı 5-ci maddənin çıxarılmasıdır.

Konstitusiya Qanuna əsasən, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkiləri Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təklifləri əsasında Azərbaycan Respublikasının Prezidenti təyin edəcəkdir .

Bundan başqa dəyişikliklə Azərbaycan Respublikası Prezidentinin və ya Azərbaycan Respublikası Milli Məclisinin təklifi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasının qapalı iclasının keçirilə bilməsi nəzərdə tutulur .

Eyni zamanda dəyişikliyə əsasən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilmək üçün Naxçıvan Muxtar Respublikasının ərazisində beş ildən az olmayaraq daimi yaşamaq tələbi aradan qaldırılır.

Digər dəyişiklik Naxçıvan Muxtar Respublikasında yerli icra hakimiyyətləri başçılarının Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təqdimatı əsasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilməsidir.

Dəyişiklikdə həmçinin "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinin aktlarının artıq qərar deyil, sərəncam adlandırılması nəzərdə tutulub. Bundan başqa Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər və əlavələr haqqında Konstitusiya qanunları yox, qanunlar qəbul etməsi dəyişiklikdə öz əksini tapmışdır.

Hüquqi akta keçid

## 2. "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 27 fevral tarixli 365-VIIQD nömrəli Qanunu

Dəyişikliyə əsasən məhkum cəriməni müəyyən edilmiş müddətdə ödəmədikdə, cərimə növündə cəzanın icrası hökmü çıxarmış məhkəmə tərəfindən məcburi qaydada icraya yönəldilməklə həyata keçirilir. Bu halda, cərimə ilk növbədə məhkumun əməkhaqqına və ya başqa qazancına yönəldilir. Məhkumun əməkhaqqı və ya başqa qazancı olmadıqda, yaxud məhkumun əməkhaqqı və ya başqa qazancı cərimənin tamamilə ödənilməsi üçün kifayət etmədikdə, cərimə məhkumun xüsusi mülkiyyətdə olan əmlakına və ya ümumi mülkiyyətdə olan payına yönəldilir və bu halda "İcra haqqında" Azərbaycan Respublikası Qanununun tələbin borclunun əmlakına yönəldilməsi ilə bağlı müddəaları tətbiq olunur.

Hüquqi akta keçid

## 3. "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 fevral tarixli 367-VIIQD nömrəli Qanunu

Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilmişdir.
Belə ki, dövlət sosial sığorta sistemində elektron xidmətlərə keçidin sürətləndirilməsi və innovativ həllərin tətbiqi mütəmadi olaraq bu sistemlə bağlı dəyişikliklərin aparılmasını və təkmilləşdirilmələrin həyata keçirilməsini zəruri edir.
Dəyişikliklə "sosial sığorta nömrəsi" sözləri "fərdi identifikasiya nömrəsi (FİN)" sözləri ilə əvəz edilmişdir. Bu dəyişiklik sosial sığorta sistemində məlumatların idarə olunmasında vahidliyi və uyğunluğu təmin edəcək, qurumlar arasında məlumat mübadiləsini asanlaşdıraraq e-sistemlərin inteqrasiyasını sürətləndirəcəkdir.

Hüquqi
akta keçid

## 4. "Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2026-cı il 27 fevral tarixli Qanunu

Beynəlxalq aviasiya təşkilatlarının hava limanlarına dair tələblərinin həyata keçirilməsi, uçuşların təhlükəsizliyinin təmin edilməsinin təkmilləşdirilməsi, hava limanları ətrafında mühafizə olunan təhlükəsizlik zonalarının yaradılması, yeni uçuş-enmə zolaqlarının tikilməsi və uçuş-enmə zolaqların genişləndirilməsi məqsədilə bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqların alınması ilə əlaqədar normativ hüquqi aktlarda müvafiq dəyişikliklər edilmişdir.
Dəyişikliyə əsasən dövlət mülkiyyətində olan hava limanlarının (aeroportların) və aerodromların genişləndirilməsi və ya yeni hava limanlarının (aeroportların) və aerodromların inşası torpağın alınmasına əsas verən dövlət ehtiyaclarının siyahısına daxil edilmişdir.
Həmçinin "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikası Qanununun 3.1.5-ci maddəsindən irəli gələrək, uyğunlaşdırma çərçivəsində Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 157.9-cu maddəsinə "dəniz limanının ərazisinin artırılması" sözləri əlavə edilmişdir.

Hüquqi
akta keçid

## 5. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 374-VIIQD nömrəli Qanunu

Dəyişiklik "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qadağan edilmiş yerlərdə elektron siqaretlərin istifadəsi, idxalı, ixracı, istehsalı, topdan və ya pərakəndə satışı və ya satış məqsədilə saxlanılmasına görə inzibati məsuliyyətin müəyyən edilməsi ilə bağlıdır.
Belə ki, dəyişikliklə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinə "Elektron siqaretlərin istifadəsi, idxalı, ixracı, istehsalı, topdan və ya pərakəndə satışı və ya satış məqsədilə saxlanılması" adlı yeni 212-1-ci maddə əlavə edilir. Yeni maddədə qanunvericilikdə qadağan edilmiş yerlərdə, küçələrdə və digər ictimai yerlərdə elektron siqaretlərdən istifadə ilə bağlı cərimələrin tətbiqi, habelə elektron siqaretlərin və ya onların komponentlərinin idxalı, ixracı, istehsalı, topdan və ya pərakəndə satışı və ya satış məqsədilə saxlanılması halında inzibati xətanın bilavasitə obyekti olmuş malların müsadirə edilməsi və cərimələrin tətbiq olunması nəzərdə tutulur.
Bu Qanun 2026-cı il aprelin 1-dən qüvvəyə minir.

Hüquqi
akta keçid

## 6. Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 27 fevral tarixli Fərmanı

Azərbaycan Respublikasında rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində prioritet istiqamətlərin müəyyənləşdirilməsi, milli texnoloji potensialın gücləndirilməsi, rəqəmsal suverenliyin möhkəmləndirilməsi, innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi, həmçinin bu sahədə dövlət siyasətinin vahid və əlaqələndirilmiş şəkildə həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının yaradılması qərara alınmışdır.

Hüquqi
akta keçid

## 7. "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 27 fevral tarixli Sərəncamı

Ölkə iqtisadiyyatında müasir texnologiyaların tətbiqinin və yerli istehsal potensialının genişləndirilməsi, habelə dövlət idarəetməsinin və infrastrukturun yüksək səviyyədə rəqəmsallaşdırılması əsasında dayanıqlı, rəqabətqabiliyyətli inkişafın təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı" (bundan sonra-Fəaliyyət Planı) təsdiq edilmişdir. Fəaliyyət Planı ölkədə rəqəmsal transformasiya proseslərinin sistemli şəkildə həyata keçirilməsi, dövlət idarəçiliyində müasir informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi və rəqəmsal iqtisadiyyatın inkişafının sürətləndirilməsi məqsədilə qəbul edilmiş strateji sənəddir. Bu sənəd rəqəmsal texnologiyaların müasir iqtisadi artımın əsas hərəkətverici qüvvələrindən birinə çevrildiyi və qlobal rəqabətin daha da gücləndiyi bir dövrdə dövlət idarəçiliyinin, ictimai xidmətlərin və institusional fəaliyyətin rəqəmsal əsaslar üzərində yenidən qurulmasının zəruriliyini nəzərə alaraq hazırlanmışdır.
Fəaliyyət Planının 6.1.1.2.13-cü yarımbəndinə əsasən, Azərbaycan Respublikasının rəqəmsal inkişafına təsir edən çatışmazlıqların aradan qaldırılması məqsədilə prioritet istiqamətlər üzrə həyata keçiriləcək tədbirlərdə dövlət orqanları (qurumları) tərəfindən rəqəmsallaşma, süni intellekt, innovasiya və kibertəhlükəsizlik üzrə yol xəritələrinin hazırlanması (əsas fəaliyyət göstəriciləri qeyd edilməklə) və icrasının təmin edilməsi nəzərdə tutulmuşdur.

Hüquqi akta keçid

## 8. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2026-cı il 25 fevral tarixli 58 nömrəli Qərarı

Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 7 noyabr tarixli 523 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərar ilə təsdiq edilmiş "İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi"nə aşağıdakı məzmunda 12-ci hissə əlavə edilərək, həbs edilmiş şəxslərə, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərə (məntəqə tipli cəzaçəkmə müəssisələri istisna olmaqla) tibbi xidmətlərin göstərilməsi şərtləri müəyyənləşib.

"12. Həbs edilmiş şəxslərə, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərə (məntəqə tipli cəzaçəkmə müəssisələri istisna olmaqla) tibbi xidmətlərin göstərilməsi şərtləri

12.1. Həbs edilmiş şəxslərə, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərə (məntəqə tipli cəzaçəkmə müəssisələri istisna olmaqla) tibbi xidmətlər aşağıdakı şərtlərlə göstərilir:

12.1.1. müvafiq tibbi xidmətin Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsi tərəfindən göstərilməsi üçün zəruri tibbi avadanlıq və (və ya) müvafiq sahə üzrə işçilərinin olmaması;

12.1.2. bir büdcə ili ərzində tibbi xidmətlər göstərilən həbs edilmiş şəxslərin, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərin (məntəqə tipli cəzaçəkmə müəssisələri istisna olmaqla) 1500 nəfərdən çox olmaması;

12.1.3. bu Sənədin 12.1.2-ci yarımbəndi nəzərə alınmaqla, bir büdcə ili ərzində icbari tibbi sığorta fondunun vəsaiti hesabına həyata keçirilən sığorta ödənişlərinin 200 000 manatadək olması.

12.2. Həbs edilmiş şəxslərə, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərə (məntəqə tipli cəzaçəkmə müəssisələri istisna olmaqla) tibbi xidmətlərin göstərilməsi zamanı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən təhlükəsizlik tədbirləri təmin edilir.".

Hüquqi akta keçid

## 9. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2026-cı il 11 mart tarixli 77 nömrəli Qərarı

2025-ci il 7 mart tarixli 150-VIIQD nömrəli Qanunla "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 11-1.3-cü maddəsi aşağıdakı redaksiyada verilmişdir:

"11-1.3. Orqanlarda (qurumlarda) çalışan işçilər korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatları səlahiyyətli struktur bölməyə (şəxsə) verə bilərlər. Səlahiyyətli struktur bölmə (şəxs) öz funksiyalarını səmərəli yerinə yetirmək üçün fəaliyyətinə qanunsuz müdaxilələri istisna edən zəruri müstəqilliyə malik olmalıdır. Səlahiyyətli struktur bölmə (şəxs) işçilər barədə həvəsləndirmə və intizam tənbehi tədbirlərinin tətbiq edilməsi, insan resurslarının idarə olunması və işçilərin qiymətləndirilməsində (attestasiyasında) birbaşa və

ya dolayı yolla iştirak etməməlidir. Səlahiyyətli struktur bölmə (şəxs) orqanların (qurumların) rəhbərləri qarşısında hesabatlılıq və qərəzsizlik tələblərinə uyğun fəaliyyət göstərməlidir.";
Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 150-VIIQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 14 aprel tarixli 365 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən "Miqrasiya orqanları işçilərinin attestasiyası Qaydası", "Dövlət vergi orqanlarının vəzifəli şəxslərinin attestasiyası Qaydası", "Azərbaycan Respublikasının daxili işlər orqanları əməkdaşlarının attestasiyasının keçirilməsi Qaydası", "Fövqəladə hallar orqanları əməkdaşlarının attestasiyası Qaydası" və "Diplomatik xidmət əməkdaşlarının attestasiyasının keçirilməsi Qaydası"nın müvafiq bəndlərinə uyğunlaşdırma xarakterli dəyişikliklərin edilməsi qərara alınmışdır.
Belə ki, korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat vermiş işçi, vəzifəli şəxs və əməkdaş attestasiyadan keçirildikdə "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 11-1.3-cü maddəsinin tələblərinə əsasən səlahiyyətli struktur bölmə (şəxs) attestasiyada birbaşa və ya dolayı yolla iştirak etməməlidir.

Hüquqi
akta keçid

## 10. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2026-cı il 17 mart tarixli 83 nömrəli Qərarı

"Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Notariat haqqında" və "İcra haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 216-VIIQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 7 iyul tarixli 653 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 23 avqust tarixli 148 nömrəli Qərarında uyğunlaşdırma xarakterli dəyişikliklər edilərək həmin Qərarla təsdiq edilmiş 4 nömrəli formanın adında "Ölümü ilə əlaqədar vərəsəliyi qəbul etməyə vaxtı çatmamış" sözləri "Miras açıldıqdan sonra ölmüş" sözləri ilə əvəz edilmiş, həmin Qərarla təsdiq edilmiş 5 nömrəli forma ləğv edilmişdir.
Bundan başqa "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"da müvafiq maddələr üzrə uyğunlaşdırma xarakterli dəyişikliklər edilmiş, bəzi maddələr yeni redaksiyada verilmiş, 96-cı hissə üzrə üçüncü abzas aşağıdakı redaksiyada verilərək, yeni məzmunda beşinci, altıncı və yeddinci abzaslar əlavə edilmişdir:
"Vərəsə miras açıldıqdan sonra onun müəyyənləşdirilmiş müddətdə qəbulundan imtina etmədən öldükdə, mirasın qəbulundan imtina etməmiş vərəsənin vərəsələri ilkin miras qoyandan qalmış əmlaka mirasın qəbulundan imtina etməmiş vərəsənin əmlakı kimi vərəsəlik şəhadətnaməsi ala bilərlər.";
"Notarius vərəsəlik şəhadətnaməsinin əldə olunması üçün müraciət edən vərəsəyə şəhadətnamə verərkən vərəsə olan, lakin şəhadətnamə almaq üçün müraciət etməmiş digər vərəsələrin (miras şəriklərinin) də mirasdan onlara çatacaq paylarını müəyyən edərək həmin şəhadətnamədə göstərir. Hər bir miras şəriki Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1325.2-ci maddəsi ilə müəyyən edilmiş payına da vərəsəlik şəhadətnaməsi ala bilər. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1325.2-ci maddəsində nəzərdə tutulmuş miras şəriklərinin miras paylarına sərəncam vermək hüquqları vardır. Həmin şəxslər vərəsəlik şəhadətnaməsi alanadək notariat qaydasında təsdiq edilmiş müqaviləyə əsasən

miras paylarına sərəncam verə bilərlər. Miras şərikləri arasında miras paylara sərəncam verilməsi haqqında müqavilə əsasında miras payı əldə etmiş vərəsənin mirasdakı payı əldə etdiyi pay nisbətinə uyğun artırılır və vərəsəlik şəhadətnaməsində yekun payı göstərilir.";

Hüquqi akta keçid

## 11. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2026-cı il 10 mart tarixli Qərarı

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 2026-cı il 10 mart tarixdə Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VII hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, konstitusiya məhkəmə icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası İnsan hüquqları üzrə Müvəkkilinin (ombudsmanın) sorğusu əsasında Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 455.0.3-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsinə, 71-ci maddəsinin I, II, VI və X hissələrinə, 127-ci maddəsinin IV hissəsinə və 130-cu maddəsinin IX hissəsinə uyğunluğunun yoxlanılmasına dair konstitusiya işinə baxaraq qərar qəbul etmişdir.

№ 04/2026

Azərbaycan Respublikası Ali Məhkəməsi Aparatının
Məhkəmə təcrübəsinin təhlili şöbəsi

# DÜNYADA HÜQUQ

Azərbaycan Respublikasının
Ali Məhkəməsi

# Dövlət hakimiyyəti, konstitusiya və məhkəmə sistemi

## 1.“Yeni Konstitusiya, yeni mərhələ”: Qazaxıstanda yeni Konstitusiya qüvvəyə mindi

Qazaxıstanda 2026-cı ilin mart ayında keçirilən referendum nəticəsində yeni Konstitusiya qəbul edilib və bu, ölkənin hüquqi-siyasi sistemində geniş dəyişikliklərin başlanğıcı kimi qiymətləndirilir. Yeni sənəd hakimiyyət bölgüsünün yenidən qurulmasını və dövlət institutlarının səlahiyyətlərinin dəqiqləşdirilməsini nəzərdə tutur.

Bu hadisə həm də rəsmi səviyyədə institusional legitimləşdirilib – ***15 mart tarixi*** artıq Konstitusiya Günü kimi qeyd olunur. Bu isə islahatların yalnız hüquqi deyil, həm də siyasi və simvolik xarakter daşıdığını göstərir.



Xəbərin əslinə keçid

## 2. Böyük Britaniyada ən yüksək hakim vəzifəsi üçün seçim başlayır



Xəbərin əslinə keçid

Böyük Britaniyada mühüm dəyişikliklərə start verilib – Ali Məhkəmənin növbəti sədri vəzifəsi üçün seçim prosesi rəsmi şəkildə başlanıb. Bu addım hazırkı prezident Lord Reed-in 2027-ci ilin yanvarında təqaüdə çıxacağını açıqlamasından sonra atılıb.

Məlumata görə, yeni sədrin seçilməsi üçün xüsusi seçim komissiyası formalaşdırılıb. Bu komissiya hüquq sisteminin müxtəlif institutlarını təmsil edən yüksək səviyyəli üzvlərdən ibarətdir və namizədlərdən yalnız yüksək hüquqi bilik deyil, həm də dövlət institutları ilə balanslı münasibət qurmaq bacarığı tələb olunur.

## 3. Tramp ABŞ-ın baş prokurorunu vəzifədən azad edib






Prezident Donald Trump 2026-cı il 2 aprel tarixində ABŞ-ın baş prokuroru Pam Bondi-ni vəzifəsindən azad etdiyini açıqlayıb.

Məlumata görə, Trump xüsusilə Bondi-nin bəzi istintaq məsələlərində, o cümlədən Ceffri Epşteyn işi ilə bağlı sənədlərin açıqlanması prosesində fəaliyyətindən narazı olub. Həmçinin onun siyasi rəqiblərə qarşı hüquqi tədbirlərin kifayət qədər sürətli həyata keçirilməməsi də əsas səbəblərdən biri kimi göstərilir. Prezidentin qərarı ilə baş prokurorun müavini və eyni zamanda Trump-ın keçmiş şəxsi vəkili olan Todd Blanche müvəqqəti olaraq bu vəzifəyə təyin edilib.

Pam Bondi isə açıqlamasında bu vəzifədə çalışmanın onun üçün böyük şərəf olduğunu bildirib və yaxın zamanda özəl sektorda fəaliyyətini davam etdirəcəyini qeyd edib.

Xəbərin əslinə keçid

## 4. “Xalq ‘yox’ dedi”: İtaliyada məhkəmə islahatı referendumu uğursuz oldu




İtaliyada 22–23 mart 2026 tarixlərində keçirilən konstitusiya referendumu nəticəsində məhkəmə sisteminə dair geniş islahat paketi seçicilər tərəfindən rədd edilib. Səsvermənin nəticələrinə görə, seçicilərin təxminən 53%-i islahatlara qarşı çıxıb və bu, hökumət üçün ciddi siyasi zərbə kimi qiymətləndirilib.

Təklif olunan dəyişikliklər hakimlərlə prokurorların karyeralarının ayrılması, Ali Məhkəmə Şurasının bölünməsi və yeni intizam məhkəməsinin yaradılmasını nəzərdə tuturdu. Referendumun nəticəsi isə məhkəmə sistemində radikal dəyişikliklərin ictimai dəstək olmadan həyata keçirilməsinin çətinliyini bir daha göstərdi.

Xəbərin əslinə keçid

## 5. Rusiyada ictimai məlumatlarda xarici sözlərin istifadəsinə məhdudiyyət tətbiq olundu



2026-cı ilin mart ayında Rusiyada qüvvəyə minən yeni qanunvericilik dəyişiklikləri çərçivəsində istehlakçılara yönəlmiş ictimai məlumatlarda xarici sözlərin istifadəsinə ciddi məhdudiyyətlər tətbiq edilib. "Rus dili haqqında" qanuna edilən dəyişikliklərə əsasən, mağazalar, xidmət obyektləri, saytlar və digər ictimai platformalarda yerləşdirilən məlumatlar əsasən rus dilində təqdim olunmalıdır.

Yeni qaydalara görə, məhsulların xüsusiyyətləri, istehsalçı haqqında məlumatlar, eləcə də endirim və kampaniya şərtləri yalnız rus dilində və müasir ədəbi dil normalarına uyğun şəkildə ifadə edilməlidir. Bu isə rəsmi lüğət və qrammatika qaydalarına riayət olunmasını hüquqi öhdəlik halına gətirir.

Xəbərin aslinə keçid

## 6. Tayvanda keçmiş merə korrupsiya cinayətlərinə görə 17 il həbs cəzası verilib

Tayvanda keçmiş Taipei meri və sabiq prezidentliyə namizəd Ko Ven-je korrupsiya ittihamları üzrə 17 il azadlıqdan məhrum edilib. Məhkəmə onun iri tikinti layihəsi ilə bağlı rüşvət alması və siyasi ianələri mənimsəməsi faktlarını sübuta yetirilmiş hesab edib.

Hökmə əsasən, o, yalnız azadlıqdan məhrum edilmir, həm də müəyyən müddət dövlət vəzifələrində çalışmaq hüququndan məhrum olunur. Bununla belə, qərardan apellyasiya şikayəti vermək imkanı qalır.

Xəbərin aslinə keçid



## 7. Vodafone işi iki hissəyə bölündü: London Ali Məhkəməsi iri kollektiv iddianı mərhələli baxışa çıxarır





Böyük Britaniyada Vodafone-a qarşı açılmış və təxminən 85 milyon funt sterlinq dəyərində qiymətləndirilən kollektiv iddia üzrə Ali Məhkəmə mühüm prosessual qərar qəbul edib. Məhkəmə işin daha səmərəli və strukturlaşdırılmış aparılması məqsədilə prosesin iki mərhələyə – yəni "split trial" formatına bölünməsinə qərar verib.

Məlumata görə, iddia Vodafone-un françayzinq tərəfdaşlarına qarşı maliyyə siyasəti və müqavilə münasibətləri çərçivəsində ədalətsiz davranış göstərdiyi iddiaları ilə bağlıdır. Bu mübahisə artıq bir neçə ildir davam edir və mediada geniş rezonans doğurub

Xəbərin əslinə keçid

## 8. Ağ Evdən Ali Məhkəməyə....



ABŞ hüquqi tarixində nadir rast gəlinən hadisə baş verib: prezident Donald Trump 2026-cı il 1 aprel tarixində ABŞ Ali Məhkəməsinin şifahi dinləmələrində şəxsən iştirak edib. Bu addım yalnız simvolik deyil, həm də dövlət hakimiyyətləri arasındakı münasibətlərin həssas balansını yenidən gündəmə gətirən mühüm hüquqi siqnal kimi qiymətləndirilir.

Trampın məhkəmə zalında fiziki iştirakı hüquqi baxımdan qərarın nəticəsinə təsir etməsə də, siyasi və institusional müstəvidə geniş rezonans yaradıb. Hüquqşünaslar qeyd edir ki, bu addım məhkəmə hakimiyyətinin müstəqilliyi və onun siyasi proseslərdən uzaq saxlanılması prinsipi ilə bağlı yeni müzakirələrə yol açır.

Xəbərin əslinə keçid

# İnsan hüquqları, siyasi azadlıqlar və beynəlxalq hüquq

## 9. BMT Yaxın Şərqdə azadlıqların dərin şəkildə məhdudlaşdırıldığını açıqladı





BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı Volker Türk 2026-cı ilin aprel ayında etdiyi açıqlamada Yaxın Şərqdə vətəndaş azadlıqlarının ciddi şəkildə gerilədiyini bildirib. Onun sözlərinə görə, regionda davam edən münaqişələr fonunda dövlətlər tərəfindən ifadə azadlığı və toplaşmaq hüququna qarşı təzyiqlər kəskin şəkildə artıb və bu, artıq sistemli xarakter almağa başlayıb.

Məlumata görə, xüsusilə İranda minlərlə insan "milli təhlükəsizlik" ittihamları ilə həbs olunub, bir çox hallarda isə saxlanılan şəxslərin ağır şəraitdə və hüquqi təminatlardan məhrum şəkildə saxlanıldığı bildirilir. Eyni zamanda bəzi hallarda ölüm cəzasının tətbiqi və etirafların zorakılıq altında alınması ilə bağlı iddialar beynəlxalq narahatlıq doğurur.

Xəbərin əslinə keçid

## 10. "Jurnalistika yoxsa casusluq?" – Macarıstanda jurnalistə qarşı cinayət işi



Xəbərin əslinə keçid

Macarıstanda 2026-cı ilin mart–aprel aylarında hüquqi və siyasi rezonans doğuran hadisə baş verib: tanınmış araşdırmaçı jurnalist Szabolcs Panyi casusluq ittihamı ilə rəsmi olaraq təqsirləndirilib. Bu addım ölkədə həm milli təhlükəsizlik, həm də media azadlığı məsələlərini kəskin şəkildə gündəmə gətirib.

Məlumata görə, hökumət jurnalisti Ukrayna ilə əlaqələrdə olmaqda və xarici təsir şəbəkəsinin bir hissəsi kimi fəaliyyət göstərməkdə ittiham edir. İddialar əsasən onun xarici siyasət və təhlükəsizlik sahəsində apardığı araşdırmalar, xüsusilə Macarıstan rəsmilərinin Rusiya ilə əlaqələrinə dair materiallar dərc etməsi fonunda irəli sürülüb.

## 11. Azadlıq müqabilində sanksiya – Belarus 250 siyasi məhbusu buraxdı




Xəbərin əslinə keçid

Belarusda 2026-cı ilin mart ayında diqqət çəkən hüquqi-siyasi hadisə baş verib: prezident Aleksandr Lukaşenko 250 siyasi məhbusun azadlığa buraxılması barədə qərar verib. Bu addım ABŞ ilə aparılan danışıqlar nəticəsində əldə olunan razılaşmanın tərkib hissəsi kimi qiymətləndirilir.

Məlumata görə, razılaşmaya əsasən ABŞ bəzi sanksiyaların yumşaldılması qarşılığında Belarus tərəfinin məhbusları azad etməsinə razılıq verib. Bu, son illərdə ölkədə həyata keçirilən ən böyük kütləvi azadlığa buraxma kimi qiymətləndirilir və diplomatik münasibətlərin normallaşmasına yönəlmiş addım kimi təqdim olunur.

## 12. “Niyə Beynəlxalq Cinayət Məhkəməsi ABŞ prezidentinə heç nə edə bilmir?” – hüquqi reallıqlar və siyasi məhdudiyyətlər



Xəbərin əslinə keçid

2026-cı ilin martında yayımlanan hüquqi analizdə Beynəlxalq Cinayət Məhkəməsinin (ICC) ABŞ prezidenti üzərində faktiki yurisdiksiya həyata keçirə bilməməsinin səbəbləri izah olunur.

Əsas səbəblərdən biri ABŞ-ın ICC-nin əsasını təşkil edən Roma Statutuna qoşulmamasıdır. Bu isə o deməkdir ki, Məhkəmə yalnız müəyyən hallarda – məsələn, cinayətin ICC üzvü olan dövlətin ərazisində törədilməsi və ya BMT Təhlükəsizlik Şurasının xüsusi qərarı ilə – yurisdiksiya tətbiq edə bilər. Bundan əlavə, Məhkəmə öz qərarlarını icra etmək üçün dövlətlərin əməkdaşlığından asılıdır və ABŞ kimi güclü dövlətə qarşı bu mexanizmin işləməsi ciddi suallar doğurur.

## 13. Netanyahu ilə bağlı çağırışlar Macarıstanı hüquqi dilemma qarşısında qoyur

2026-cı ilin mart ayında insan hüquqları müdafiəçiləri Macarıstan hakimiyyətini İsrailin baş naziri Benyamin Netanyahu-nu ölkəyə səfəri halında həbs etməyə çağırıblar. Bu çağırış Beynəlxalq Cinayət Məhkəməsinin mümkün yurisdiksiyası və müharibə cinayətləri ilə bağlı iddialar fonunda irəli sürülüb.

Məsələ Macarıstan üçün ciddi hüquqi dilemma yaradır. Bir tərəfdən, ölkə beynəlxalq hüquq öhdəliklərinə, o cümlədən ICC ilə bağlı prinsiplərə riayət etməlidir. Digər tərəfdən isə siyasi və diplomatik münasibətlər bu cür addımların atılmasını çətinləşdirir.



Xəbərin əslinə keçid

## 14. “Hüququn aliliyi geriləyir”: Aİ-də beş ölkə sistemli şəkildə hüquqi institutları zəiflədir

2026-cı ilin mart ayında yayımlanan geniş hesabat Avropa İttifaqında narahatedici tendensiyanı ortaya qoyub. Araşdırmaya görə, Bolqarıstan, Xorvatiya, Macarıstan, İtaliya və Slovakiya hökumətləri hüququn aliliyini sistemli şəkildə zəiflədən siyasət yürüdür. Bu proses xüsusilə məhkəmə müstəqilliyi, korrupsiyaya qarşı mübarizə, media azadlığı və vətəndaş cəmiyyətinə nəzarət sahələrində özünü göstərir.

Hesabatda qeyd olunur ki, Avropa institutlarının tövsiyələri uzun illərdir təkrar olunur, lakin real irəliləyiş çox məhduddur. Bu isə Aİ-nin hüquqi nəzarət mexanizmlərinin effektivliyi ilə bağlı ciddi suallar yaradır və “rule of law” prinsiplərinin gələcəyi ilə bağlı narahatlığı artırır.



Xəbərin əslinə keçid

# Texnologiya, süni intellekt və rəqəmsal hüquq

## 15. Süni intellekt artıq məhkəmə zalındadır”: ABŞ hakimlərinin əksəriyyəti Sİ-dən istifadə edir




Xəbərin əslinə keçid

2026-cı ilin mart ayında yayımlanan yeni araşdırma göstərir ki, ABŞ federal hakimlərinin artıq əksəriyyəti – təxminən 60%-i – öz gündəlik fəaliyyətində süni intellekt alətlərindən istifadə edir. Bu, məhkəmə sistemində texnologiyanın artıq eksperimental mərhələni keçərək praktik alətə çevrildiyini göstərən mühüm hüquqi dönüş nöqtəsi kimi qiymətləndirilir.

Araşdırmaya görə, hakimlər süni intellekti əsasən hüquqi araşdırma, sənədlərin təhlili və qərar layihələrinin hazırlanması kimi texniki proseslərdə istifadə edirlər. Eyni zamanda, məhkəmə sistemində AI istifadəsi ilə bağlı vahid qaydaların olmaması diqqət çəkir. Bəzi hakimlər bu texnologiyanın istifadəsini təşviq etdiyi halda, digərləri onu məhdudlaşdırır və ya ümumiyyətlə qadağan edir. Xüsusilə Sİ -nin səhv nəticələr (“hallucination”) yaratması halları hüquqi etibarlılıq məsələsini gündəmə gətirir.

## 16. “Rəqəmsal qadağa dalğası”: İndoneziya və Avstraliya sosial mediaya hüquqi məhdudiyyətləri sərtləşdirir



Xəbərin əslinə keçid

2026-cı ilin mart ayında Asiya-Sakit okean regionunda sosial media üzərində hüquqi nəzarət kəskin şəkildə güclənib. İndoneziya hökuməti 16 yaşdan aşağı şəxslərin sosial media platformalarına çıxışını məhdudlaşdıran qaydaları qüvvəyə mindirib və bu addım regionda geniş rezonans doğurub.

Yeni tənzimləməyə əsasən, TikTok, Instagram, Facebook və YouTube kimi platformalarda azyaşlı istifadəçilərin hesablarının mərhələli şəkildə deaktiv edilməsi nəzərdə tutulur. Məqsəd uşaqları kiberzorakılıq, asılılıq və zərərli kontentdən qorumaqdır. Bununla yanaşı, texniki tətbiq mexanizmlərinin qeyri-müəyyənliyi və nəzarətin effektivliyi ilə bağlı suallar qalmaqdadır.

## 17. “Texnologiya qanunlaşır”: Vyetnam süni intellekti geniş şəkildə tənzimləyən qanun qəbul etdi




Vyetnam 2026-cı ilin mart ayında süni intellektin istifadəsini hərtərəfli tənzimləyən yeni qanunu qüvvəyə mindirib. Qanun AI sistemlərinin hazırlanması, istifadəsi və nəzarətinə dair geniş çərçivə müəyyən edir və xüsusilə riskli texnologiyalara daha sərt tələblər tətbiq edir.

Yeni hüquqi rejim çərçivəsində şirkətlərdən şəffaflıq, təhlükəsizlik və məlumatların qorunması sahəsində daha ciddi öhdəliklər tələb olunur. Dövlət isə Sİ texnologiyalarına nəzarəti gücləndirərək həm innovasiyanı təşviq etməyə, həm də potensial riskləri minimuma endirməyə çalışır.

Xəbərin əslinə keçid

## 18. “Texnologiyanın sürəti, hüququn geriliyi”: ABŞ-da Sİ infrastrukturu ilə bağlı yeni qanun təşəbbüsü

ABŞ-da senatorlar Bernie Sanders və Alexandria Ocasio-Cortez tərəfindən təqdim edilən yeni qanun layihəsi süni intellekt data mərkəzlərinin genişlənməsinin müvəqqəti dayandırılmasını nəzərdə tutur. Təşəbbüsün əsas səbəbi kimi Sİ texnologiyalarının sürətli inkişafının hüquqi və sosial təsirlərinin yetərincə öyrənilməməsi göstərilir.

Layihədə xüsusilə enerji istehlakı, ətraf mühitə təsir və əmək bazarına mümkün təsirlər vurğulanır. Ekspertlər qeyd edir ki, bu təşəbbüs texnologiya ilə hüquqi tənzimləmə arasındakı fərqin getdikcə böyüdüyünü və dövlətlərin bu boşluğu doldurmağa çalışdığını göstərir.



Xəbərin əslinə keçid

# 19. Sİ və şəxsi məlumatlar toqquşur”: Kanada X platformasına qarşı araşdırma başladır



Kanadada şəxsi məlumatların qorunmasına cavabdeh qurum sosial media platforması X (keçmiş Twitter) ilə bağlı rəsmi araşdırmaya başlayıb. Araşdırma istifadəçilərin şəxsi məlumatlarının süni intellekt modellərinin təlimində necə istifadə edildiyini müəyyən etməyə yönəlib və bu prosesin federal məxfilik qanunlarına uyğun olub-olmadığı yoxlanılır.

Məsələ xüsusilə Sİ texnologiyalarının sürətli inkişafı fonunda aktuallaşıb. Tənzimləyici orqanlar hesab edir ki, istifadəçi məlumatlarının icazəsiz və ya qeyri-şəffaf şəkildə istifadəsi fundamental hüquqların pozulmasına səbəb ola bilər. Bu iş, süni intellekt və “privacy law” kəsişməsində yaranan hüquqi problemlərin real nümunəsi kimi qiymətləndirilir.

Xəbərin əslinə keçid

**Qeyd edirik ki, bülletendə yer alan bütün məlumatlar açıq internet resurslarından götürülmüşdür. Məlumatların düzgünlüyü və aktuallığı üçün məsuliyyət həmin mənbələrə məxsusdur.*

**Əlavə məlumat və suallar üçün:**


Nilgün Məmmədova - **1830**

Bahar Oruclu - **1818**

*Azərbaycan Respublikası Ali Məhkəməsi Aparatının Məhkəmə təcrübəsinin təhlili şöbəsi*


# Faydalı keçidlər

1. UN News – https://news.un.org
2. Council of Europe Newsroom – https://www..int/en/web/portal/news
3. EU Law & Justice News – https://europa.eu/newsroom
4. OECD – https://oecd.org/newsroom
5. Avropa İnsan Hüquqları Məhkəməsi (ECHR HUDOC) – https://hudoc.echr.coe.int
6. Avropa Ədalət Məhkəməsi (ECJ/ CJEU) – https://curia.europa.eu
7. Beynəlxalq Ədalət Məhkəməsi (ICJ) – https://icj-cij.org
8. Transparency International – https://transparency.org
9. World Justice Project – https://worldjusticeproject.org
10. UNODC – https://unodc.org
11. Harvard Law Today – https://today.law.harvard.edu
12. Stanford Law and Technology Review - https://law.stanford.edu/stanford-technology-law-review-stlr/
13. The Guardian – Law section – https://theguardian.com/law
14. Law.com International– https://www.law.com/international
15. Reuters Legal – https://www.reuters.com/legal
16. Bloomberg Law – https://news.bloomberglaw.com
17. Financial Times – Law Section – https://www.ft.com/law
18. JURIST – https://www.jurist.org
19. Law360 – https://www.law360.com.
20. Global Arbitration Review (GAR) – https://globalarbitrationreview.com
21. The Lawyer – https://www.thelawyer.com
22. European Law Blog – https://europeanlawblog.eu
23. Euractiv – Justice & Home Affairs – https://www.euractiv.com/section/justice-home-affairs
24. ABA Journal (American Bar Association) – https://www.abajournal.com
25. International Association of Judges – https://www.iaj-uim.org/iuw/